**Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”ni “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 7, maddə 453, 12, maddə 731; 2004, 10, maddə 760; 2005, 4, maddə 280, 10, maddələr 871, 872; 2006, 10, maddə 846, 11, maddə 927; 2007, 8, maddə 756, 11, maddələr 1073, 1081; 2008, 3, maddə 155, 10, maddə 882; 2009, 2, maddə 48, 6, maddə 399; 2010, 3, maddə 171, 4, maddə 273, 12, maddə 1057; 2011, 1, maddə 13, 2, maddə 71; 2013, 5, maddə 462; 2015, 5, maddə 489, 10, maddə 1090; 2016, 2, I kitab, maddə 187; 2017, 3, maddə 342) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 45-ci maddə aşağıdakı redaksiyada verilsin:

“45. Hər bir daxili işlər orqanları əməkdaşının attestasiyası beş ildə bir dəfədən çox olmayaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.”.

2. 49-cu maddə ləğv edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2017-ci il
682-VQD